Xalq qəzeti 2020.- 13 dekabr.- S.10.

***Azərbaycan paytaxtının baş meydanında keçirilən Zəfər paradı Qarabağda aparılan qalibiyyətli Vətən müharibəsi ilə tariximizə yazılan Zəfər salnaməsinin son cümləsinə qoyulan nida işarəsinə bənzədi. Necə ki, Prezident İlham Əliyev düşmən ölkənin rəhbərinin düz gözünün içinə demişdi: “Qarabağ Azərbaycandır – nida işarəsi(!). Yaşadığımız zəfər təntənəsi, təəssüf ki, müharibələrlə bağlı göynəkli düşüncələr də yaşadır.***

# Zəfər paradı – Qələbə salnaməsinin nida işarəsi




Tarixdə çox müharibələr olub. Haqlı-haqsız, ədalətli və ya ədalətsiz. İbtidai cəmiyyətlərdə müharibələr ovçu-toplayıcıların, qəbilə və tayfaların mövcudluq şərti idi. “Homo Sapiens” öz dəstəsindən olmayan bütün özünəbənzər məxluqlarda həyat riski görürdü və “öldürməkdən başqa, onlarla nə etmək olar?” haqqında düşünmədən rast gəldiyi bütün özünəbənzərləri öldürürdü.

Daha sonrakı cəmiyyətlərdə müharibələr tayfaların törəyib-artan üzvlərini kifayət qədər qida ilə təmin etmək, özünəbənzərlər tərəfindən artıq sahmana salınmış yeni yaşayış yerlərinə sahib çıxaraq həyatını daha rahat davam etdirmək cəhdləri ilə şərtlənirdi. Onlar üçün də öldürmək yenə də sağ qalmaq zərurətindən irəli gəlirdi. Sağ qalmaq nə üçün zəruri idi?-- Daha sonrakı dönəmdə digər özünəbənzərlərin hücumlarından qoruna bilmək və öldürülməmək üçün.

Sağ qalmaq isə yenidən müharibə etmək, yaşayış arealını genişləndirmək və daha geniş ərazilərdə daha çox qida mənbəyini əldə etmək üçün vacib idi. Bəşəriyyət beləcə qapalı dairə çərçivəsində özünün müharibələr seriyalarını bu günümüzə qədər davam etdirməkdədir. Həyatdan vaxtsız getmiş istedadlı şairimiz Əli Kərim bəşərin bu uğursuz keçmişinin yadigarı olan müharibələrlə bağlı deyirdi: “Əsrdaşım, dayandırmaq olmazmı de, yarımçılpaq qədim insan atan daşı”. Şair sonra bildirirdi ki, insanların bir-birinə atdığı ilk daşlar əsrimizdə ölümsaçan raketlərə çevrilib.

Bütün müharibələrin hər iki tərəf üçün ümumi olan və tarix boyu dəyişməyən cəhətləri var-- itkilər, məhrumiyyətlər və onlardan doğan nifrət. İnsan itkisi, torpaq itkisi, sərvət itkisi və s. düşmənə nifrəti gücləndirir və bir müharibə başa çatmamış insanları yeni müharibəyə körükləyirdi. Qazananlar qənimətlərini əllərində saxlamaq, məğlublar isə itirdiklərini bərpa etmək üçün yenidən savaşmalı olurdular.

Məğlublar həyatı ilə birlikdə həyatı davam etdirmək üçün zəruri olan hər şeyini itirirdilər. Qaliblərin də nəsibi məğlubların taleyindən çox fərqlənmirdi. Onların da itkiləri olurdu. Bütün dövrlərdə hər bir qalibiyyət qan bahasına əldə olunub. Müharibə qalibiyyətlə yekunlaşsa belə, yaxınlarını müharibədə itirən qaliblərin də nifrəti tükənmir, əksinə nəsildən-nəsilə keçərək davam edirdi. Beləcə qalibiyyət də daha sonra rahat yaşamaq və bir daha itkilərlə üzləşməmək, nifrətdən uzaq və xoşbəxt həyat yaşamaq anlamına gəlmirdi.

Bugünkü müharibələrin məqsədi, qaydaları və nəticələri çox fərqlidir. Amma ibtidai dünyanın müharibələrini müşaiyət edən və hər iki tərəfin nəsibi olan ölüm, məhrumiyyət və itkilər müasir müharibələrin də ayrılmaz atributları olaraq qalmaqdadır.

Lakin yeganə bir fərq var – tərəflərdən yalnız birinə nəsib olan Zəfər xoşbəxtliyi. Bu gün o sevincin və o xoşbəxtliyin həmişəlik sahibi Azərbaycan xalqıdır. Ölkənin baş meydanında keçirilən Zəfər paradı – qalib ordumuzun düşmən üzərində tam və birdəfəlik Qələbəsinin tərənnümüdür. Zəfər Paradı ümumxalq həmrəyliyimizin təcəssümü və düşmənə qarşı yumruq kimi birləşmiş bir xalqın müqəddəs Vətən sevgisinin təzahürüdür. Zəfər yalnız qalib xalqın alnına və birdəfəlik yazılır.

İtkilərimiz olsa belə, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında yenilməz Ordumuzun qazandığı möhtəşəm Zəfər xalqı nifrətə yox, qurub-yaratmağa, xoşbəxt həyata səsləyir. Bu zəfərdən sonra düşmənə nifrətimizi Qarabağın hər addımına sevgimizlə əvəz edəcəyik, bütün gücümüzü gələcək nəsillərin daha xoşbəxt və daha firavan yaşamasına yönəldəcəyik.

Zəfər paradında hərbçilərimizin torpağı möhürləyən sərrast addımları yalnız zəfərlərlə davam edəcək Yeni həyatın başlanğıc addımlarıdır. Bu addımlar xalqımıza yeni və daha parlaq zəfərlər gətirəcək.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı, fəlsəfə doktoru***